# TÜRKAY

aylıq ədəbiyyat dərgisi



Sentyabr 2024 il 2 say 21

## BU SAYIMIZDA

Nəcibə İlkin / Azərbaycan Əsgəri / 3
Vüsalə Vətənxan Mehri / Olmaz / 4
Ziba Sevindik Hüseynova / Gəlmədin / 5
Yasemin Kuloğlu / Yunus Sofrası / 6
Tamella Şuşalı / Xoşbəxt İdik, Əzizim / 7
Liya Russ / Qadın və Kişi Münasibətləri / 8
Həvva Nazim / Olmaz, Olmaz / 9
Songül Özel / Yürek Sızım / 10
Zərəngiz Dəmirçi Qayalı / Türkəm Mən 11
Zeynep Keskin / Filistin Bizimdir Sevdiğim / 12
Şahnaz Şahin / Məni Soruşmusan / 13
Lütviyyə Əsgərzadə / Ruhun Dönüşü vəya Bir Bədəndə İki Ruh / 14
Ayşe Ünüvar / Siyaha Yakın Mor Bir Cümle / 20
Sevinc Azadlı / Sevinc Azadlı / 21
Sona İntizar / Sevdiyim! / 22
Səringül Sadə / İnanın Mənə / 23
Səidə Əliyeva / Ürək / 24

TÜRKAY
aylıq ədəbiyyat dərgisi
Baş Redaktor Lütviyyə Əsgərzadə
Məsul Katib Meryem Küçük
Üz Qabıqı Şekli pinterest.com
E mail dergiturkay@gmail.com
Sentyabr 2024 il 2 say 21

## Nəcibə İlkin

# Azərbaycan Əsgəri

Hər adın bir tarixdi, boy atdım qüdrətinlə,
Yaşadıq zaman-zaman, sənin rəşadətinlə,
Sarsılmaz hünərinlə, sönməz dəyanətinlə
Lərzəyə sal dünyanı,  titrət  sən göyü, yeri
Azərbaycan əsgəri!

Dağsan, əzəmətin var, çinarsan, mən kölgənəm,
Mərmi-mərmi boy atan arzularında dinəm,
Ayağın dəyən yerə vətən deyib sürünəm,
Öləm sənin yerinə sən salamat dön geri,
Azərbaycan əsgəri!

Hər dönüşün and yerim, şəhidlik zirvəsisən,
Doğmasan balam kimi, vətən kimi əzizsən,
Polad kimi poladsan, Fəridsən, Mübarizsən,
Haqqıma  can verənim, kim verər bu dəyəri!
Azərbaycan əsgəri!

Vətən adlı Qarabağ, bütöv Azərbaycanım,
Qələbə sorağınla  hər gün açılır danım,
Qəhrəmanlıq simvolum, qeyrətim, haqqım-sanım,
Sən vətən xilaskarım, qalibiyyət zəfəri!
Azərbaycan əsgəri!

Neçə ildi can verən torpağına can verdin,
Susuz dodaqlarına su yerinə qan verdin,
Halallıqdan doymayan  ömrümə cahan verdin
Azadlığın müjdəsi,  ver qələbə xəbəri!
Azərbaycan əsgəri!
Azərbaycan əsgəri!

## Vüsalə Vətənxan Mehri

# Olmaz

Qəmi dünya çəkən könlüm xəzandır gülşənim olmaz,
Ucalmış ərşə ruhum, çün bu yerdə məskənim olmaz.

Bədəndən ayrılıb fikrim, nə dad bilməm, nə ehsas mən,
Nə cür ölməkdir, ey Pərvərdigarım, mədfənim olmaz?

Qəmin zülmündən ömrüm qarə zülmətdir, nə illətdir
Ki doğmaz gün, bahartək qəlbə sübhi rövşənim olmaz.

Mənə bəxş etdiyin ya Rəb, vəcahətdən, gözəllikdən,
Fəna mülkündə bir zərrə özümçün məxzənim olmaz.

Olan qafil həqiqətdən, deyil hali bəsirətdən,
Bil ey Mehri, nəzər etsən günahdan cövşənim olmaz.

## Ziba Sevindik Hüseynova

# Gəlmədin

Səni gördüm, vuruldum,
Bulaq kimi duruldum.
Gözləməkdən yoruldum,
Sən görüşə gəlmədin.

Axdı üzə göz yaşim,
Nələr çəkdi, gör, başım?
Nədən , könül sirdaşım,
Sən görüşə gəlmədin?

Gözlərimə gəldi tor,
Bu dünyaya baxdım kor.
Ürəyimə düşdü qor,
Sən görüşə gəlmədin.

Sən məni çox sevərdin,
Mənə könül verərdin.
"Gələcəyəm" deyərdin,
Sən görüşə gəlmədin.

## Yasemin Kuloğlu

# Yunus Sofrası

İpliğim sabır, ilmeğim şükür, seyrim yıldızlar kafilesi.
Tur Dağı'nda ekmeğin aziz burnu, Hızır karpuz çekirdeği
İğde ve limon çiçeği kalbim, başucumda dolunay sızısı.
Asansörler Fransız, rütbeler kayadan tuz, ömrüm çölde su.

Köylüleri öldürmedi şairler, leylekler direkte lamba
Uçan uğurum, böcekler yakamda kravat, kolum düğme
Bereket elife Halil, Rahman ve büyük harfli cins isim
Buğday sözlüklerde himmetti, kadınlara mutlu son.

Pireler ancak kaynatılınca çıkar kazandan, ipektir Çin
Bir tutam şifa lazım tabağıma, beş taş has çocukluk
Yağlı, salça ekmekle akşamı eden bir karın ve tokluk
Gözleri aç itlere ciğer olmadan kediler, taş taş doydum

Ben de daha üzüm yaratılmadan şiirden sarhoştum
Hep bir kış hazırlığıydım yazın, kaç kilo bamya dolap?
Şeftali reçellik değil, turşu kurulsun sirke olunca elmalar
Sabah namazı tespihi, hamura maya eğri büğrü odunlar

Uzatmalarda kiremitte tavla ellerim, sahili yok deniz
Üsküdar, kalbine yenilmiş bir şair, hisleri ateşte demir
Ziyafet, gözlerinin değdiği her şey, bine bir verem, ayva
Onun üstünden aşar davalar, kuyuya bir kervan uğrar.

Kuru otlar, Gül eder hicabından dervişi, yollar uzun.
Dizlerin, dizlerime el ayak, göz kulak ruhun, ruhuma
Aynalarda Yusuf, ya Hafız, Ethem ruhuna armağan
Karınca duası, ağustos ikindisi bu sofra, bizim Yunustan

## Tamella Şuşalı

# Xoşbəxt İdik, Əzizim

İlk görüşə gəlmişdik, bir biz idik, bir dəniz,
Səma mavi, buludsuz, sular aynatək təmiz,
O günün xoşbəxtliyi bizi bizdən almışdı,
Xəzər də sevgimizə baxıb heyran qalmışdı.
Sahilə sənlə birgə düşmüşdü mənim izim,
Xoşbəxt idik, əzizim.

Fonda musiqi vardı, nəğmə oxurdu dəniz,
Elə dalğalanırdı, sevgi qoxurdu dəniz,
Baxışların alovu sularda bərq vururdu ,
Könlümüzün istəyi min bir xəyal qururdu,
Ürəkdən boylanırdı arzular düzüm-düzüm,
Xoşbəxt idik, əzizim.

O xoş günlər nə dönər, nə də qayıdar geri,
Uzaq keçmişdən nağıl danışır görüş yeri,
Dalğa həminki dalğa, dəniz həmin dənizdi,
O günlərdən yadigar qalan tək sevgimizdi,
Göy də bizimki idi, qağayılar da bizim,
Xoşbəxt idik, əzizim.

## Liya Russ

# Qadın və Kişi Münasibətləri

Bu kiçik yazını rus dilindən tərcümə etməklə heç də bütün qadınlara haqq qazandırıb kişiləri suçlamaq fikrim yoxdur. Sadəcə, yeni ailə quran kişilərə bir vəsait kimi lazım ola biləcəyini düşündüm.

Ailənin sütunu qadındırsa, o sütunun əyilməməsi, sınmaması, alçalmaması bütün hallarda kişidən asılıdır.

Qadınlarınıza diqqətli olun ki, hörmət sahibi olasınız.

Yerli mentalitetdən, dədə-babaların goyduğu qanunlardan söz açanlara əvvəlcədən deyim ki, biz istəsək də, istəməsək də zaman ötür, çox şey dəyişir və bir çox mental dəyərlər öz əhəmiyyətini itirir.

Əgər biz toylarımızda gəlinlə bəyin müasir rəqsini, gəlinlərimizin geyimindəki açıq-saçıqlığı, qızlarımızın badə qaldırıb gələcək əri ilə şampan içməyini, qız atalarının toylarda rəqs etməyini qəbul etmişiksə, deməli müasir həyatın digər həqiqətlərini də qəbul etməliyik. Bu mənim sözlərim idi. Aşağıda isə tərcümə etdiyim mətndir:

“Kişilər təəssüf ki, bəzən elementar şeyləri anlamırlar. Məsələn, adi, sadə bir həqiqəti: qadınlar son dərəcə qarşılıqlıdırlar. Qadınlar kişinin onlara olan münasibətini özlərinə energetik səviyyədə hopdururlar. Kişi qadın üçün hansı işlər gördüyünü, ona hansı sözlər dediyini, dediklərinin etdikləri ilə üst-üstə düşməsini və sairə. Zaman keçdikcə kişi bir zaman atdığı bumeranqı, yəni özünü necə apardığının nəticəsini geri alır. Ya bir zaman qadınına bağışladığı xoş xatirələrdən, diqqətdən, qayğıdan, zəriflikdən, istilikdən qadına bəxş etdiyi vaxtdan və qüvvədən hörülmüş bir qadın yaradır və ona sahib olur ya da tam əksinə. Çünki qadın bütün hallarda toplanmış enerjini kişiyə geri qaytarır. Bu qanundur. Beləliklə, kişi öz qadınını ya çətin sınaqlardan sonra qayıdıb istirahət edə biləcək və orada sakitlik tapa biləcək çiçəklənən cənnət bağçasına ya da dəqiq son güllə ilə onun axırına çıxa biləcək bundan əvvəl isə onun mənliyini hətta bütün ömrünü sındıraraq ət maşınından keçirən dəqiq, bərkimiş ölümcül bir mexanizmə çevirə bilər. Bir daha təkrar edək ki, qadın ağılsız dərəcədə qarşılıqlıdır!

Əgər siz qarşınızda incə, qayğıkeş, sakit, sevən, etibarlı bir qadın görürsüzsə, demək siz şərəfli və tərifə layiq əsl kişisiniz! Əgər sizə tərəf heç dönmədən üstünüzdən keçib gedə biləcək soyuqqanlı, hissiyyatsız birini görürsüzsə demək keçmişdə siz bunu yaratmaq üçün çox cəhd etmisiniz. Qadının bağışlama və dözüm limiti isə çoxdan bitib … Unutmayın, qadınınıza baxdıqda özünüzə baxırsınız. Ona görə özünüz verə bilməyəcəyinizi tələb etməyin.”

(Tərcümə: Təranə Məmməd)

## Həvva Nazim

# Olmaz, Olmaz

Ruhsuzsa bir insan, əlacı yoxdu
Köz salmaz ürəyə, qor olmaz, olmaz.
Bəzən haqqı görməz, üstündən keçər
Demə ki,  göz yummaz, kor olmaz, olmaz.

Nişangah eyləsə dərdini çoxu,
Yan keçər hədəfdən yayınar oxu.
Sap əgər çürüksə, toxu... ha toxu,
Əməyin hədərdi, tor olmaz, olmaz.

Qapdırma özünü hər yetən itə,
Pis deyər onsuz da əlçatmaz ətə.
Bitsə də son nəfəs Vətəndə bitə,
Qürbət torpağından gor olmaz, olmaz.

Songül Özel

# Yürek Sızım

Oysa anlatacak
ne çok şey vardı gözlerimde
bakışlarıma sığmayan
zaman ve dil susmasaydı
gönlüm kıyıya vurmasaydı
ne bir kitaba sığardı susuşlarım
ne de yüreğimi yakarak geçen zamana
tek sığacak ve sığınacak
yeri vardı sözlerimin
sandıkta kilitli kalmış
o masum kalbin
lâkin açamayacaktı belki sözlerim
sırlarla dolu kilidini ama olsun
kendi kilidimi kırdım ya derdim
avunurdum belki
belki de geçerdi yürek sızım
kelimeler dile gelir
hâlini arz ederdi utanarak
harfler haddini aşıp
konardı gönlünün bam teline
sessizce haykırarak
dedim ya belki, belki de
geçerdi yürek sızım.

## Zərəngiz Dəmirçi Qayalı

# Türkəm Mən

Çoşan, dəli seləm mən!
Açan təzə güləm mən!
Nəğməli könüləm mən!
Ürək fərəhlə coşar,
Yeni nəğmələr qoşar!

Qafqazları qucaq biz!
Baykalları aşaq biz,
Xəzər ilə coşaq biz!
Türk oğluyam, türkəm mən!
Dünyalara görkəm mən!

Əsr əsrə calandı,
Qoyma, elim talandı!
Zərəngiz dalğalandı,
Dözüm, çözüm, görkəm mən!
Türk oğluyam, türkəm mən!

Zeynep Keskin

# Filistin Bizimdir Sevdiğim

Bizim sevgimizi Filistin'de gömdüler
Biz ki birbirine âşık iki kederli
Biz ki iki yaralı güvercin
Biz bitip tükenmeyen yollarda sevdik birbirimizi
Biz sevgilim
Namlının ucunda bekleyen iki yürekli…
Ötelerden gelen seslere karışır hüznü bu yağmurun
Biz ki içinde ukdeleri büyüyen hiç sevilmemiş sevgili
Biz, kapı eşiğinde annesini bekleyen çocuklar
Biz Filistin'in üstüne yağan bombalardan aldık cesaretimizi
Filistin bizim hem dünyamız hem mezarımız
Filistin bizim cennetimiz
Filistin bizimdi ve hep bizim olsun
Filistin bizim hüznümüz
Bir enkazı cennet yapacak yürekler lazım bize
İşte o enkazdan kalanlardasın sen.

Nerde Allah lafzını duysam küt küt atar kalbim
Ve ümidimiz hep tazedir; hüznümüz o vakit yenik.
Nerde ezan sesi duysam,
İrkilir dururum orasıdır benim ülkem
Ve ordadır derdimin devası.

Nereyi yaktılarsa ordan tutuşmaya başlar yangının
Nerede adını duysam; işte çiçekleri kalbimin.
Nerden sevmeye başlasam orda yeşeriyor ümitlerim.
Ve O… ümidimin sonsuz kaynağı.
Bizim sevgimizi Filistin'e gömdüler
Ümidimizi de Filistin'in üstünden dağılmayan kara bulutlara...

Şahnaz Şahin

# Məni Soruşmusan

Necəsən ay məndən uzaqda olan
Necədi tənhalıq, həsrət necədi?
Burda səhər-axşam birdi mənimçün
Orda ayrılırmı gündüz gecədən?

Ay necə doğulur, gün necə çıxır,
Qəzəbin soyuyur, kin necə çıxır?
Tapırmı bir sevda qəlbinə cığır,
Yüz dəfə keçdiyin adsiz küçədən?

Məni soruşmusan, sağ ol,yenə də
Şükür bu günə də lap o günə də
Yel vurub aparıb ən son dəni də
Ta bir şey bitirmir könlüm acıdan.

Yığıram, gedirəm əbəs yolları
Tıxanır sonuncu nəfəs yolları
Heyif eyləmişik həbs yolları
Açılmır bir paslı açar ucundan.

Bu da son, dediyin son gediş, son söz
Bax bu üz sənindi, mənimdi bu üz
Deyirsən, a Şahnaz,bir azca da döz
Gələrəm bu bahar köçü içində

## Lütviyyə Əsgərzadə

# Ruhun Dönüşü vəya Bir Bədəndə İki Ruh

Neçə vaxtdır bir yazı yazmağı və yazıya haradan, necə başlayacağımı düşünürəm. Nəhayət qərar verirəm, bəlkə elə bu ideyanın başladığı andan başlayım?

Mayın 24-də AMEA-nın Əsas binasının önündəki Elmlər Akademiyası parkında 8 gün davam edəcək III Türk Dünyası Ədəbiyyat və Kitab Festivalının açılışı oldu. Festivalın 1 və ya 2 ci günü idi. Kitab sərgisini gəzirdim. Bir anlıq durdum. Məndə həmişə belə olur. Fecebookda da paylaşılan şəhid şəkillərinə baxıb keçə bilmirəm. Baxıram, danışıram, çox vaxt rəhmət yazmağa əlim gəlmir. Elə bilirəm hər rəhmət dedikcə onları təzədən öldürürəm və s. Ziddiyyətli fikirlərim var bu barədə...

Gözəl bir xanımın səsini eşidirəm. "Hansı kitabı istəyirsinizsə götürün." O anda çantamı iş otağımda qoyub aşağı endiyim üçün təəssüflənirəm. "Bağışlayın", "kaşelyok" götürməmişəm. Xanım "Bir ömürdə iki ruh" adlı kitabı götürdü, adımı soruşdu və aftoqraf yazdı. Üzərinə bir dənə də "Ruhun dönüşü" yazısı həkk olunan xatirə qeyd dəftərini qoyub mənə uzatdı. Mən özümü təqdim etdim, filologiya elmləri doktoru Lütviyyə Əsgərzadə. İnşallah Şəhidimiz haqqında bir yazı yazaram, dedim və uzaqlaşdım. Durub uzun-uzadı danışa da bilərdim, amma o an özümü o qədər narahat hiss etdim ki… Ürəyimdən daş asıldı elə bil...

Kitabı iş otağımda yazı stolumun üstünə qoydum. Festival davam etdiyi və mənim də panellərim və çıxışlarım olduğu üçün hələ oxumağa macal tapmamışdım. Bir gün sosial şəbəkədə paylaşımlarımı bəyənənlər arasında Lətifə Rəşid adını görüncə, yenə ürəyimdən sanki bir daş asıldı... Verdiyim sözü xatırladım. Kitabı götürüb oxumağa başladım. Haqqında yazacağım kitabın iki müəllifi var, biri Kəlbəcər uğrunda gedən döyüşlərdə şəhid olan Rəşidin ruhu, digəri isə Azərbaycan Yazıçılar və Azərbaycan Aşıqlar Birliklərinin və Xan qızı Natəvan Ədəbi Məclisinin üzvü şairə Lətifə xanım Rəşid. Kitabın üz qabığına baxıram, məgərsə Lətifə xanım da mənim kimi düşünürmüş, Şəhidləri öldürmək yox, yaşatmaq lazımdır! Lətifə xanımın ruhunda yaşatdığı qardaşı Rəşid Kəlbəcərdə şəhid olub. Ruhu şad olsun!!! Lətifə xanım, hər ikinizin qarşısında baş əyirəm.

Şəhidlik İslamda ən yüksək dərəcədir. Axirətdə ən yüksək dərəcə peyğəmbərlikdən sonra şəhadətdir. Bu qədər yüksək məqamdır, şəhadət. "Ölsəm şəhidəm, qalsam qaziyəm!", - inamı bizi düşmənlərindən üstün qılan ən mühüm prinsiplərdən biridir.

Mən bu düşüncədəyəm ki, Şəhidlər haqqında ən gözəl nəğməni də, dastanı da, romanı da torpaq uğrunda can verərək özləri yazıb! Bizim yazdıqlarımız ancaq onların canları bahasına yazdığı qəhrəmanlıq dastanının təsviri və təqlidi ola bilər. Digər tərəfdən Şəhidlərimiz və qazilərimiz Böyük zəfərimizlə elə gözəl dastan, elə gözəl simfoniya, elə gözəl Zəfər tablosu bəxş ediblər ki, nə qədər yazsaq azdır.

Kitabda bütün şeirlərdə Rəşidin ruhu Lətifə ilə qoşa addımlayır, birlikdə yazılır. Müəllif Rəşidin ruhunun dönüşü haqda yazır: " 24 aprel 2022-ci il tarixindən 25-bə keçən gecə saat 4 radələri idi. Bu gecə Qədr gecəsi olduğundan qarşımda müqəddəs Quran kitabı var, onu oxuyuram. Elə bil bu vaxt Rəşidi hiss edirəm. Axı o yuxuda mənə kitabın adını və müəllif sözündə nələri yazacağımı və eyni zamanda "bərabər yazarıq, gözlə məni", - demişdi."

Rəşid, "dünyasını dəyişdikdən 18 il sonra martın 8-də Lətifə xanımın ömür-gününə qayıdır. O anları təşviş içində yaşayan, nələr baş verdiyini dərk etmədiyi günlərin birində Lətifə xanım ağlayaraq şeiri diktafona yazır və Allaha üz tutub yalvarır ki, nə olar, məni olanlardan agah eylə! Elə həmin an elə bir şeir gəlir ki... bu seirlə bacısını uşaqlıq çaglarına götürür, 20-25 dəqiqəlik təmasdan sonra isə Rəşid bir şeir deyir: "Qananlar qanmaza ərz eyləsinlər." Fikrini belə tamamlayır: "Necə ki sən zamanla alışdın mənim ruh dünyama, eləcə də insanlar alışacaqlar bizim bərabər yazmağımıza." "Xəfif külək" kimi bacısı Lətifənin ruhuna qonaq olan Rəşidin istədiyi nədir. "Qananlar qanmaza ərz eyləsinlər", - pıçıldamaqla nə demək istəyirdi? Ruh sirri-xudadır. Allahın insana əmanətidir. Bir ayədə Allah ruhun yalnız Onun xüsusi elminə bağlı bir varlıq olduğunu, bu elmdən insanla-

ra az bir şey öyrədildiyini xəbər verir. Rəvayət olunur ki, İbn Məsud demişdir: “Bir gün mən Peyğəmbərlə birgə Mədinə xarabalıqlarının birindən keçirdim. Peyğəmbər xurma ağacından olan bir əsaya söykənə–söykənə gedirdi. Bu vaxt biz bir dəstə yəhudinin yanından keçərkən onlar bir-birlərinə: “Ondan ruh barəsində soruşun”– dedilər. Onlardan bəziləri: “Soruşmayın! Ola bilsin ki, onun verdiyi cavab sizin xoşunuza gəlməsin (sizdə şübhə oyatsın)”, digərləri isə: “Yox! Mütləq soruşacağıq”- dedilər. Bir kişi ayağa qalxıb: “Ey Əbul-Qasım! Ruh nədir?” - deyə soruşdu. Peyğəmbər susdu. Mən öz-özümə: “Yəqin ki, ona vəhy nazil olur” - dedim və ayağa qalxdım. Vəhy nazil olduqdan sonra Peyğəmbər bu ayəni onlara oxudu: “Səndən ruh haqqında soruşurlar. De: “Ruh Rəbbimin əmrindədir. Sizə yalnız az bir bilik verilmişdir” (əl-Buxari).

“Rəbbin əmrində olan” və bizə çox az bilgi verilən ruh və ruhun ölməzliyi hər zaman filosofları da düşündürüb. Sokratın fikrincə, kainat təsadüfi deyil, rasional nizama görə qurulmuşdur. İnsan ruhu görünməz və ölməzdir. Platon “ruhu insanın mahiyyəti, bizim necə davranacağımıza qərar verən varlıq kimi qəbul edir və bu mahiyyəti varlığımızın qeyri-cismani (cisimlər aləmində yer tutmur) və əbədi cəhəti hesab edir. Bədənlər ölsə də, ruh daim yeni bədənlərdə yenidən doğulur (reinkarnasiya). Aristotel də ruhu varlığın mahiyyəti kimi təyin etmiş, lakin Platon və dini ənənələrdən fərqli olaraq ruhun ayrıca varlıq (varlıq, substansiya) olmasına qarşı çıxmışdır. Müəllimi Platona, eləcə də bir çox filosoflara qarşı çıxan Aristotelin fikrincə, ruh və bədən iki ayrı reallıq kimi yox, vahid substansiya kimi qəbul edilməlidir. Bu maddə kimi bədənə (enerji şəklində olan) və forma kimi ruha (hərəkətdə olan) malikdir. Aristotelin fikrincə, ruh canlı bədənin reallığı olduğu üçün ölməz ola bilməzdi. Aristotelin insan ruhunun fani olub-olmaması ilə bağlı fikirləri ilə bağlı mübahisələr hələ də davam edir. Aristotel ruhu materiyadan ayrılmaz hesab etsə də, onun təqdim etdiyi ruh anlayışı bu gün tam başa düşülmür.

Bədəndə can-ruh, canda şüur var. Yəni bədəndə ruh varmı, yoxmu sualına şüurun inkaredilməz fakt olması ilə cavab vermək olar. Bədən müəyyən işlər görür və ona bu işləri görmək üçün güc verən ruhdur. Şüur “can”ın enerjisi, can isə bədənin hərəkətverici gücüdür. “İçimizədki canı” - ruhu günəş işığının molekullarına bənzətmək olar. Ruh bədəni tərk edən kimi bədən çürüyür. Ruh isə ölmür, əbədidir. Ruh bədəni tərk edəndə Allaha qovuşacaqdır. “Quran”ın 8-ci surəsinin 161-ci ayəsində deyilir: “Həqiqətən, biz onun (Allahın) tərəfinə qayıdacağıq” (“İnna ileyhür-raciun”). Bu baxımdan “Veda” ədəbiyyatının gəldiyi nəticə çox ibrətvericidir. “Bütün əksikliklərdən, əldə etmək və qorumaq cəhdlərindən qurtul, öz ruhi mahiyyətində bərqərar ol!”

“Rih” sözündən əmələ gələn ruh sözü “xəfif külək” mənasını ifadə edir. Ruh görən və eşidən, bədənə daxil olaraq onu canlandıran, yuxu və ölüm anında bədəndən çıxan müstəqil varlıqdır. Ruh Allaha məxsusdur, insan öldüyündə ruh bədəndən çıxıb aid olduğu yerə yüksəlir. “Bir bədəndə iki ruh” kitabındakı şeirlər də şəhid Rəşidin ruhunun Lətifə xanıma pıçıltıları, “ərz etmək” istədikləridir. Lətifə xanımın yazdığına inansaq, kitabın adına da Rəşidlə birlikdə qərar vermişlər: “Kitabın adına gəldikdə isə məni gözlədiyin və doğru qərar verdiyin üçün sənə təşəkkürümü bildirirəm. Gözəlim, səni əmin edirəm ki, hələ çox insanlar Rəşidin ruhu ilə ruh dünyasını duyacaqlar. Və mən bütün bu olanlardn çox məmnunm və xoşbəxtəm. Çünki bu işdə Allahın rizası var.”

“Mənim sadiq bacım, sən məni axirət gözü ilə bu dünyada seçdiyim yeganə insansan! Sözsüz ki, bu işdə Allahın rizası var. Mənim gözəlim, hələ çox söz eşidəcəksən! Mənim xatirimə gözünü kor, qulağını kar et. Həm də heç kim narahat olmasın, mən Kefli İsgəndərin ölüləri kimi qayıdıb yaşamayacağam. Mən səninlə, şeirlərimizlə bərabər, dillərə dastan olaraq yaşayacağam. İçimdə kaşkilərim çoxdur. Kaş sənə pıçıldadığım kimi, hər kəsə pıçıldaya bilərdim.”

Müəllif üçün yazılanların asanlıqla qəbul edilməyəcəyi, çox sözlər eşidəcəyi aksiomadır. İnsanlar buna inanmağa hazır deyil, deyə düşünürəm. Hələ də qəbul etdiyimiz və etmədiyimiz şeylər var. Çoxları gözlə görmədiyi şeylərin varlığını inanılmaz sayır. Bu sözləri yazarkən gəncliyimdə bir həkimlə bu mövzuda etdiyimiz söhbəti xatırlayıram. ”Gözlə görmədiyimiz şeylərə inanmırıq, halbuki gözlə görmədiyimiz, amma var olduğunu bildiyimiz o qədər şey var ki...” demişdi həkim. Ardınca, məsələn, ağıl dediyimiz şeyi görə bilirikmi, yox, amma var. və ya hisslər, görə bilməsək də var və s. O zaman çox düşünmüşdüm bu haqda. Ruhun olmasını və öl-

məzliyini də qəbul edənlər də var, etməyənlər də. ruh da gözlə görünmür. Mən ruhun olduğuna inananlardanam. Bir az  çətin qəbul etdiyim ruhun başqa bir ruhla ünsiyyətdə olmasıdır. Filosofların fikrincə, ruh daim yeni bədənlərdə yenidən doğulur (reinkarnasiya). Rəşidin ruhu yeni bədəndə deyil, bacısının ruhunda can bulmuşdur. Bəzən ömür dediyimiz zaman dilimində o qədər qəribə hallarla rastlaşırıq ki, bu şübhə də öz mahiyyətini itirir. Hegelə görə, sevmək özünü unudub başqa "mən"də tapmaqdır. Əcaba, şəhid qardaşının ruhunu sevmək, onunla da danışmaq, dərdləşmək, özünü unudub Rəşidin ruhunda tapması mmkünmü və ya əksinə? (Lətifə xanım da Rəşidin ruhunu görmür, sdəcə onun gəlişini hiss edir).

Bəzən yuxular görürük, sevdiyimiz insanlar yuxuda bizimlə ünsiyyət qurur, bəzi şeylərdən xəbərdar edir. Bəlkə də yuxu saydığımız yuxu deyil? Cavabsız suallar çoxdur. Onların cavabını yalnız mənəvi və ruhi müstəvidə tapmaq olar. Bəzən işlərin çoxluğundan həftənin günlərini unutduğum olur. Bu hal çox olmasa da, olanda olur. Anam mütləq bir işarətlə mənə günün cümə axşamı olduğunu xatırladır. Çox yuxu görməsəm də gördüyüm yuxular "elçi yuxular"dır. Lətifə xanım da şeirləri Rəşidin ruhu ilə birlikdə yazdığını, hətta kitabın adına birlikdə qərar verdiyini söyləyir. Bunu qəbul edənlər olduğu kimi, qəbul etməyənlərin olduğu da şəksizdir. Mənə görə mümkündür. Rəşidin söylədiyinə görə bu rizanı ona verən Allahdır.

Müəllif, şəhid qardaşının ruhunu lirik qəhrəmanının yerinə qoya bilər. Ruh ölmürsə və yeni bədəndə can bula bilirsə, şəhid Rəşidin də ruhu yeni canda deyil, bacısının ruhunda da can bula bilər.

Rəşidin anlatmaq istədikləri var. Söylədiklərinin insanlara "ərz olunması"nı istəyir. "Bir bədəndə iki ruh" kitabında toplanan, canında can olan,  şəhid  qardaşının ruhunu daşıyan bacısı Lətifə xanımın şeirlərində Rəşidin ruhunun insanlara çatdırmaq istədikləri ilə tanış olaq:

"Rəşid deyir, söyləyirəm ərz elə,
Baş ucunda bir kölgəyəm, fərz elə.
İmanlının adətini tərz elə,
Çox şükür ki, ar da qalıb dünyada"  ("Qalıb dünyada")

Poeziyamızda və ya nəsrimizdə məcazi anlamda belə bir cümləyə tez-tez rast gəlirik. "Əbədiyyətə qovuşan müqəddəs şəhid ruhları Azərbaycanımızın səmalarında dolaşır. Şuşada bu hissləri yaşayan qazi şairimiz Rafail Tağızadə yazır: "Onlar (Şəhidlər) hər yerdə görünürdülər. Bizim üçün əziz olan, addım-addım bizi izləyən bu canlar Şuşaya gələnlərə yoldaş oldular, onları düşmənin hər cür şərrindən qoruyurlar." "Bizə şərəf bəxş edən, məğlub olmuş vətəndaşlarımızın əlindən xilas edən, Şuşanı bizə qaytaran Şəhidlərimizin müqəddəs ruhları indi bu şəhərin huzurunu qoruyur." Şəhidlərimizin ruhuna nə gözəl yanaşma. Şuşa uğrunda şəhidlik səviyyəsinə yüksəlmiş şəhidlərin ruhu bu gün müqəddəs məkanın qoruyucularıdır.

Torpaq uğrunda şəhadətə yüksələnlərin ruhları vətən səmalarında dolaşır. Bu müqəddəs ruhlardan biri olan şəhid Rəşid Lətifə xanımla birgə yazdığı şeirlərdə bir çox mətləblərə toxunulur. Rəşidin ruhunu "ən kiçik bacısının daşıması" eyni zamanda, bir çox "bağlı qapıya" açardır:

"Bədənsiz bir cəsəd olsa da ruhum,
Soluxmuş üzlərə qan verirəm mən.
Çox bağlı qapıya açaram hələ,
Ruhların içində can verirəm mən.

Ancaq Lətifədir dərdə əlacım,
Mən yaşıl ağacam, o yal-yamacım.
Ruhumu daşıyır, ən kiçik bacım,
Ruhların içində can verirəm mən"
("Can verirəm mən").

Təbii ki bir bədəndə iki ruh daşımaq o qədər də asan iş deyil. Ruhun gəlişi də, gedişi də bir ürpərişdir, həyacandır. Müəllif o anları belə təsvir edir: "Adətən Rəşidi hiss etdiyim anlarda ilk olaraq məni üşütmə tutur, sonra isə beş-on dəqiqə ağlayıram və şeiri bərabər yazırıq. O, gəlişini hər zaman bu cür hiss etdirir. Beləcə biz yazmağa başlayırıq." Rəşidin söylədiyi sözlərdən biri də bu olur: "Şeiri dinləyin, ilahi səsəm..."

"Nə imam övladı, nə də ki mələk,
Gözlərə görünməz ruham dünyada.
Ümmana sığmayan sehrli nəfəs,
Sevdası bilinməz ruham dünyada.

Sanmayın, sizlərə lazımsız kəsəm,
Qıfılbənd sirlərə təkcə mən bəsəm,
Şeiri dinləyin, ilahi səsəm,
Sevdası bilinməz ruham dünyada."
(Ruham dünyada).

Yazımızın əvvəlində də bəhs etdiyimiz kimi, ölüm, bədən üçündür; ruh üçün deyil.  Bədənin

fəaliyyəti, ruhun onu tərk etməsiylə sona çatır. Ruh isə əbədi olaraq yaşayır. "Ruh həyat sahibidir. Ruh nuranidir. Ruha bədəni xarici geydirilmişdir. Yəni, bu İlahi əmrə, xarici bir mahiyyət qazandırılmışdır, xüsusi bir əhatəlilik və bütünlük verilmişdir." Ruh, Allahdan bir əmrdir. Allahın "Mürid", "Muhyi", "Alim", "Qədr", "Hakim", "Səmi'", "Basar" və bilmədiyimiz bir çox adlarının məzhəridir. Yaradılmış bir həqiqətdir. Rəşidin ruhunun Lətifə xanımda can bulmasına izin Ondan gəlmişdir. Rəşid Allahın izniylə dil açır:

"Yoxluğum da əlimdən su içibdir,
Mən seçmədim, Tanrı onu seçibdir.
Ağıl-zəkam, ruhum ona köçübdür,
Yoxluğunu vəsf elədim, cavanlıq." (Cavanlıq).

Və ya:

"Qurumuş torpaqda gül açıram mən,
Allahın izniylə dil açıram mən.
Vaxtsız dönüşümlə sirr açıram mən,
Dur, sarıl boynuma, qurbanın olum!

"Allahın izniylə dil açan", "illərdir kəm olan", Rəşidin ruhu indi onu səsləyən, "göz yaşıyla onu qarsan" bacısının ruhunda "cəm" olub:

Gördüyün işlərdən xətircəm oldum,
İllərdi, kəm idim, indi cəm oldum.
Rəşidi səslədin, dönüb sən oldum,
Dur, sarıl boynuma, qurbanın olum! (Qurbanın olum).

"İki ruhun ortasında qalmaq", bir bədəndə iki ruhun ağırlığını daşımaq o qədər də asan deyil. Bunu ruhunda"cəm olan" Rəşid də bilir:

"Ay Lətifə, yenə mənlə dolmusan!
Xatirəmi xatirinə salmısan.
İki ruhun ortasında qalmısan,
Kim yuyacaq gözlərinin dərdini?!" ( "Kim yuyacaq gözlərinin dərdini").

Bir bədəndə iki ruh daşıyan müəllif, "ruh uçub" onu tərk edəndə onsuz özünü kəm sayır, havası çatışmır. Çünki onun "təbini oynadan" tək Rəşidin ruhudur. Özü ilə Rəşidin arasında qalan, özünü unudub Rəşid olan müəllif, cavabsız suallar arasında qalır, "tərki cahan mənmiyəm? Mən Rəşidəm, yoxsa elə sənmiyəm?"

"Daha umacağım yoxdur dünyada,
Tək Rəşid ruhudur, təbi oynadan.
Səsləyin oyanım dərin röyadan,
İtirəm ömrümün kəm havasında.

İndi deyin, tərki-cahan mənmiyəm?!
Mən Rəşidəm, yoxsa elə sənmiyəm?!
Ruhundayam, cismindəmi kəmmiyəm,
İtirəm ömrümün kəm havasında.

Lətifəyəm, bu gün havam çatışmır,
Qan qaynayır, can evimə qarışmır.
Ruh da uçub, bədənimə alışmır,
İtirəm ömrümün kəm havasında. "

"Ölümlü günüylə" ona dönən Rəşidin bacısına söylədikləri və ondan hər kəsə "ərz etməsini" istədikləri şeirlərdə Rəşidlə Lətifə birlikdədir, vəhdətdədir. "Ölümlü günü ilə ona dönən" Rəşidin ruhunun ona pıçıltılarıdır:

"Baxıram, təbiət gözəl oyanıb,
Ömür var, əzəldən nakam yaranıb.
Rəşidin külü də sənə calanıb,
Ölümlü günümlə sənə dönmüşəm"
(Dönmüşəm).

Rəşidin dilindən səslənən sözlər var ki, bunlar bir çox mübhəmlərə açar salır. İnsanı düşündürür. Rəşid öldüyünü də, "gözlərə görünməz ruh" olduğunu da, "sehrli nəfəs" tək ruhunun bacısının ruhunda cəm olması, onunla birlikdə demək istədiklərini "insanlara ərz etməsi" ilə insanların beynində bir çox təzadlı fikirlərin yaranmasına səbəb olacağını da bilir. "Çox bağlı qapıya açaram hələ", "Kim deyir, ölənlər geri dönməyir?!", "Şeiri dinləyin, ilahi səsəm", - sözləri ilə bu sirli dünyanın bağlı qapılarına baş vurmağa dəvət edir:

"Bədənsiz bir cəsəd olsa da ruhum,
Soluxmuş üzlərə can verirəm mən.
Çox bağlı qapıya açaram hələ
Ruhların içində can verirəm mən"
("Can verirəm mən").

"Sanmayın, sizlərə lazımsız kəsəm,
Qıfılbənd sirlərə təkcə mən bəsəm,
Şeiri dinləyin, ilahi səsəm,
Sevdası bilinməz ruham dünyada"
(Ruham dünyada).

Təbii ki baş vura bilmədiyimiz "çox bağlı qapılar", "qıfılbənd sirrlər" var. Məsələn, aləmlər, ruh və ruhlar dünyası və s. Ruhlarla ünsiyyət şaman təlimində əsasdır. Təsəvvüfdə varlıq aləmi mənəvi və maddi aləmlərə bölünür. Varlıq aləmi də bu dual qurumun nizamı daxilində bir neçə mərtəbəyə və mərhələyə ayrılır. "Bu

mərtəbələr ilahi varlığın – Allahın özündən maddi varlığın yekunu olan insana qədər müəyyən nizama söykənən düzümü əhatə edir. Varlıq nizamının mərtəbələri belə bir düzümə malikdir: Aləmi-lahut - Aləmi-qeyb - Aləmi-cəbərut - Aləmi-mələküt - Aləmi-şəhadət (mülk Aləmi). Aləmi-lahut (lahut aləmi) - Allah substansiyasının mövcud olduğu mütləq həqiqət aləmidir. Bu ilahi varlığın öz zatından ibarət əbədiyyət mərtəbəsidir ki, dərki mümkün deyil. Bütün sonrakı varlıq və aləmlərin başlanğıcı, səbəbi və idarəedicisidir. Mütləq xaliqdir və hər şeyin – həm sonrakı mənəvi, həm də cismani reallıqların varlığı ona bağlıdır. Onun “kon” (“ol”) əmri və ilkin təcəllisi ilə sonrakı aləmlər qərarlaşmışdır. Həmin ilkin təcəllidən Aləmi-qeyb, Aləmi-cəbərut və Aləmi-mələküt hüsulə gəlmişdir. Bu aləmlər də idraki, əqli və hissi yolla, məntiq və zahiri sübutlarla anlaşılmayan vəhdət aləmidir. Lövhi-məhfuz, külli-əql, Allahın ad və sifətlərinin sabit surətləri Qeyb aləmində, bütün ruhlar, külli-nəfs və s. isə Cəbərut və Mələküt aləmində yerləşirlər. Bu aləmdə yerləşən ruhlar aləmini daxili bəsirət gözü və nurlu batini duyumla görmək olar. Bu üç aləm məna aləmidir. Surətə, formaya və rəngə malik deyildir.“ “Çox bağlı qapıya açaram hələ” və ya “Qıfılbənd sirlərə təkcə bəsəm mən”, “Şeiri dinləyin, ilahi səsəm” bunlaramı işarətdir? Rəşidin ruhunun bacısı Lətifədə can bulması “bağlı qapılar”ın, “qıfılbənd sirlərin” cavabını tapmağa dəvətmi? Bildiyimiz kimi, aşıq deyişmələri zamanı bir-birini üstələyə bilməyən aşıqlar tərəfindən tətbiq edilən “qıfılbənd”lərin də əksəriyyəti dini-mistik təsəvvürlərlə, təbiət hadisələri ilə bağlı olur. Yəni ruhun canda can bulması bir çox “bağlı qapıya”, “qıfılbənd sirlərə”, “ilkin təcəllidən hüsulə gəlmiş aləmlərin, Aləmi-qeyb, Aləmi-cəbərut və Aləmi-mələküt”un sirrini anlamağa açar ola bilər. Çünki bu aləmlər idraki, əqli və hissi yolla, məntiq və zahiri sübutlarla anlaşılmayan vəhdət aləmidir. Lövhi-məhfuz, külli-əql, Allahın ad və sifətlərinin sabit surətləri Qeyb aləmində, bütün ruhlar, külli-nəfs və s. isə Cəbərut və Mələküt aləmində yerləşirlər. Bu aləmdə yerləşən ruhlar aləmini daxili bəsirət gözü və nurlu batini duyumla görmək olar. Bu üç aləm məna aləmidir. Surətə, formaya və rəngə malik deyildir.“

Lətifə Rəşidin həsrətinin də rəngi yoxdur. Ona göy üzündən əl edən şəhidi, “Gəl bizə qarış söyləyir.”

”Həsrətə bax, rəngi yoxdur, göynəyir,
Göy üzündən, kimlərdi, əl eyləyir?!
Gəl, Lətifə, qarış bizə! – söyləyir,
Neyləyim ki, ürəyimdə qalmısan?!”

“Mən sənin eşqin üçün, eşqinə pərvaz etdim, / Canı canımdan əziz, canda canım, can qardaş!”- deyən Rəşid Lətifənin “ruh ekizi”, “bəstəsidir.“

“İnan ki dönməmisən bu dünyaya boş-boşuna,
Səcdə et baş daşıma, canda canım, can qardaş!
Lətifə ruh əkizim, artıq onun bəstəsiyəm,
Gər ki ruh bəstəsiyəm, canda canım, can qardaş!
Canda canım, can qardaş!” (Can qardaş).

“Maddi dünya Aləmi-şəhadətdir, mülk aləmdir. Maddi xilqət, cismani əşya və varlıqlar bu aləmdə təzahür edir. Onlar müəyyən şəklə, rəngə, həcmə və formaya malikdir. Zaman da, məkan da, cəhətlər də bu aləmə xasdır. Maddi varlıq təsəvvüfdə kosmoloji düzümdə son mərhələni təşkil edəir. Bu mərhələ də iki pilləyə malikdir: Bütün göy aləmi, ərş, kürsi, fələklər, ulduzlar, sidrətül-müntəha və s. daxil olduğu Ülvi aləm və dörd ünsür, mədənat (cansız varlıqlar, mədənlər), nəbatat (bitkilər) və heyvanatın təşkil etdiyi Süfli aləm. Ülvi aləm daha uca, ali, insan da qərar tutduğu Süfli aləm isə aşağı mərtəbə hesab olunur.” Süfli aləmdə qərar tutan insanın üzü hər zaman Ülvi aləmə - Göyə olub və bu mərhələdəkilərin sirrini anlamaq istəyib. Müqəddəs şəhidlərimizin də ruhları Ülvi aləmdə qərar tutub. “Göydəki ulduzlar, şəhidlərin sayıdır.” “Hər iki dünyanı gəzib tərsinə, düşünən başları çaş qoyuram mən”, - deyən Lətifə Rəşidin də üzü ülvi aləmədir. O yazır:

“Lətifə yaşayır, xəyallar ilə,
Qızıl da tanınır əyyarlar ilə,
Kəbə də gözəldir, zəvvarlar ilə,
Fərqinə varana beş qoyuram mən”
(“Beş qoyuram mən”).

Aləmlərdən bəhs etdik, amma bu aləmlər içərisində bir dünya, bir aləm də var: Şəhidlər dünyası. Can verib Şəhidlik mərtəbəsinə yüksələn və əbədiyyən yaşayan, “cəsədi itsə də ruhu baş olan” şəhidlərin müqəddəs ruhlarının dünyası. Şəhidlik şərbətini içərək “bəxtəvər olan”ların

dünyası. Bunu Lətifə ilə Rəşidin "Ruhun etirafı" şeirində izləmək daha yerində olar:

"Məni ölüm belə almadı sizdən,
Gedən də bu qədər bəxtəvər olar?!
Qələmin tapşırıb bir qızılgülə,
Ölən də bu qədər bəxtəvər olar?!

Alın yazısını seçməmişəm ki,
Dünyamı dəyişib, itməmişəm ki,
Canımdan boşuna keçməmişəm ki,
Ölən də bu qədər bəxtəvər olar?!" (Ruhun etirafı)

Şəhidlik zirvəsini bilənlər bilir. "Orada həyat var gedənlər üçün." Onların məskəni uca mərtəbədədir. Ölənlər üçün "əlvida" deməyək, yaşadaq:
"Onlardır sevginin ölçü vahidi,
Görünməz dünyanın canlı şahidi.
Şahdan dəyərlidir orda zahidi,
Ruhların ruhunu şad edirəm mən"
(Şad edirəm mən).

"Bir bədəndə iki ruh" kitabında "Ana yurdun başını uca eləyən", "Qaranlığın dan üzü", "Yer altında toxunulmaz gül" olan şəhidlərə: Fəridə, Kənana, Ramilə, Cəmilə,Turala, Orxana şəhidlərə, şəhid analarına həsr olunan şeirlər çoxdur:
"Ana yurd başını uca eləyən,
Bu torpağın qan üzüdür, Şəhidlər!
Yurd yerinin dövrəsinə nur salar,
Qaranlığın Dan üzüdür, Şəhidlər! (Şəhidlər).

Deyirlər ki, "uşaq anadan yetim qalar." Xalqımızın üzləşdiyi faciələrdə, 20 Yanvar, Xocalı faciələrində, Vətən savaşında qəhrəman oğulların anaları yetim qaldı. Onların cəsədi torpağa qarışsa da, ruhu yüksək mərtəbəyə ucaldı. "Ana oğul istəyir, torpaq qəhrəman." Bir ananın oğlu torpaq uğrunda şəhid olaraq bütün anaların övladına çevrildi. Müəllifin, "Dağlar sizə səcdə edir,/Ağlama, şəhid anası!" - müraciəti ilə şəhid analarına ünvanladığı "Şəhid anası" şeiri çox dəyərlidir:

Bu igidlər ərəndilər,
Behiştdə gül dərəndilər.
Bayraqlara bələndilər,
Ağlama, şəhid anası!" (Şəhid anası).

Şəhidlər torpağı vətən edən, onun uğruna qurban gedən müqəddəslərdir. Torpaq uğrundan canından keçən şəhid və qazilərimiz bizə böyük, "ölçüyəgəlməz" qürur bəxş etdilər. Bu gün qürurluyuq. Ali Baş Komandan İlham Əliyevin əmri ilə müzəffər Azərbaycan ordusu yeni tarix yazdı: Zəfər tarixi. Bayramlarımıza bir bayram da yazıldı: Zəfər bayramı!

"Bu zəfər hər şəhid qanından keçib,
Minlərlə qazinin canından keçib.
Zülmət gecələrin danından keçib,
Əbədi nemətdir Zəfər Bayramı.

Biz qalib dövlətik, üzümüz ağdı,
Möhtəşəm dönüşdü, dəyərli çağdı.
Quran da bəhs edir, Şəhidlər sağdı,
Əbədi nemətdir Zəfər Bayramı"
(Zəfər bayramı").

Bu gün biz qalib dövlətik. Dövlətin gücü, Ali Baş Komandanın əzmi və siyasəti, Azərbaycan ordusunun rəşadəti sayəsində Qarabağımız azaddır, bizimdir. Ali Baş Komandanın "Nə qədər dövlətin gücü olsa da, qələbəni əldə edən əsgərdir", - sözləri nə qədər fəxarətlə səslənir. Bu gün şəhidlərimizin ruhu şaddır. Çünki onların qanı yerdə qalmayıb, qisası alınıb! Bunun üçün Ali Baş Komandan, Prezident İlham Əliyevə və Azərbaycan ordusuna minnətdarıq. Bu minnətdarlıq Lətifə Rəşidin misralarında belə sıralanır:

"Üçrəngli bayraqla dalğalanırsan,
Qarabağ adıyla hecalanırsan.
Tökülən qanları qanla alırsan,
Səsindən sükunət oyanır, İlham!
Muğamın, Seygahın pərdələrində,
Şəninə nəğmələr yazılır, İlham! ("İlham")

Dönüşün mübarək olsun, Şəhidim, - deyir və yazımı bütün Şəhidlərimizin ruhunu hörmət və rəhmətlə anaraq bitirirəm.
Allah vətən uğrunda canından keçən bütün şəhidlərimizə rəhmət eləsin!

## Ayşe Ünüvar

# Siyaha Yakın Mor Bir Cümle

Yaz bir türlü gelemedi ama çiçeklere izin verdi. Haziranın tam ortası. Bülbül sesleriyle parelenen yola saptım. Siyaha yakın mor ile işte o zaman tanıştım. Bitmeyen yağmurların sonuncusuydu. Ilık gökyüzünde sele serpe kuşlar uçuyordu. Sarı papatyalar, kantaronlar, güvercin göğüsleri, gelincikler, hatmiler, yabani yoncalar, hindibalar, ebegümeçleri çiçeğe durmuş, kara pelitler geçitsiz yoluma dikilmişti. Üzgündüm! Hem de çok üzgün…

Zamanın, kırıp aralık bıraktığı bir kapıdan geçerek saptığım bu yolda, kendi kendine konuşan biri vardı. Bana mıydı dedikleri? Beni fark etmiş miydi bilmiyorum? Durmadan konuşuyordu.

Hoş kokular eşliğinde kurduğu her cümle siyah simsiyahtı ve kalbimin en derin yerlerine değerek uslanmaz bir acı veriyordu. Dinledim. Dinledim bulamadım. Usanmaz bir arzuyla aramaya koyuldum o sesi… Her cümlesiyle yeniden vuruluyor ama ölmüyordum ve bu rüya falan da değildi. Barı kenarlarında durdum. Dikenliklere sımsıkı sarılmış asma dallarını araladım baktım. Ses kayboldu. Onu aramamdan hoşnuttu ama bulmamdan değildi. Sarı otlar, cimcim dikenleri, kahve dikenleri masmavi çiçeğe bürünmüş dilfir otları kesti yolumu.

Onların da yanı başlarına oturup bekledim, dinledim, dinlendim ama konuşan onlar da değildi.

Cümle nebat kimin konuştuğunu bilse de ser verip sır vermiyordu… Meşelere yaslandım, taşlara oturdum, toprağı elimle kazdım… Ses yok! Kaybolup gitti bir anda. Sır oldu. Sırlandı sanki. Kuşlar yine göründü gökyüzünde. Kara bir leylek kara bir şey düşürdü ağzından. Koşup buldum onu. Şerit kesilmiş siyah pürtüklü bir çaputtu… Çaputu alıp yapraksız kuru bir kızılcık ağacına bağladım ve derinlerimin acısını unutmayı diledim… Rüzgâr esmeye siyah çaput uçuşmaya başladığında sesi bir daha duydum! "Derin bak" dedi… İnsan nasıl derin bakardı, derinleri acırken…? Irmağa doğru yürüyüp suya seslendim! Anladığım o ki siyah cümleler ancak bu kararıp duran derinlikten geliyor olmalıydı. Yarın başına oturdum, ayaklarımı suya sarkıttım. Bu derin, huzurlu, sessiz akışta siyah tek cümle duyamadım…

Renklerin hür baş kaldırışına Tanrı'nın bambaşka anlamlar yüklemesi ve insanın derinleşmeden bunu duyamamasını da anladım… Derinlerimde kaybolan tek şey huzurdu.

Acı, bana kendimi duymayı unutturmuş, başka birinin kalbiyle bakmayı dikte etmişti… Su karardı, aktı, uzaklaştı. Ben unuttuğum şeyleri hatırladım. Geç kalan yaz değildi. Kararan, katranlaşan, koyulaşıp, katılaşan şey insan kalbiydi…Acı verenin kalbiyle bakınıp her şeyi siyah gören bendim. Acım, beni siyah bir zamanın içine atmış ve kapıyı kilitlemişti. Oysa son yağmurun neşesiyle renk saçan onca nebat bana renklerin şifasını fısıldıyordu. Oturduğum yerden usulca kalktım, bin bir derde şifa veren ot çöp ne varsa dokunup kokladım… Yeni

2

biçilmiş ot kokusuna yaklaşırken onu yeniden duydum; "Derinleş!" Dokunmak, koklamak, bakmak yetmiyordu… Ses uzaklaşıyor ben uzağa yaklaşıyordum. Adımlarım sıklaştı.

Nefesim yumuşadı. Rüzgâr yeniden esmeye onca rayihanın içinde bana tanıdık bir kokuyu taşımaya başladı. Bu koku çocukluktan kalma bir kokuydu anladım ama yine de bulamadım…

Yolun kıyısında uzayıp giden ekin tarlalarınabaktım. Buğday başakları sararmaya adımlıyor,

arpalar güdük yerinde sayıyordu. Bir tarlada mor çiçekli fiğler gördüm. İşte tam oracıkta koku

burnuma çarpıp döndü… Siyaha yakın mor bir cümle sildi geçti hafızamı! Sağıma soluma

bakınıp durdum. Olmadı oturdum. Yine elimle toprağı kazdım. Yine içimdeki acıya acıdım.

Yine beni acıtana kara bir dua okudum… Kararıp duran bahtın en kara cümlesini kuran sesi

yeniden ararken bir şey oldu. Gözlerim eski bir renge takıldı. Eski, koyu, derin ve güzel kokan

bu otu tanıdım; Yol kenarlarında simsiyah açardı. Yabani yonca! Yanına yakınına varınca,

hele dokununca kopkoyu bir mora döner tazecik bir koku fısıldardı. Bu ses! Derin bak diyen

sesi nasıl unutmuş, dünyanın keşmekeşine nasıl kurban etmiştim çocukluğumu! İnsan acıdan

geçerdi. Acısı geçerdi. Acıtan geçerdi ama çocukluğunu hatırlaması için siyaha yakın mor

cümleler kuran çiçekler geçmezdi…

## Sevinc Azadlı

## Vətən

Çox ellər dolaşdım, çox diyar gəzdim,
Sənin tək cənnətin görmədim vətən.
Ətriylə məst edən gül, bənövşəni,
Ayrı bir mahalda dərmədim vətən.

Yalçın qayaların, buz bulaqların,
Yaşını dünyanın yaşından alıb.
Yaşıl meşələrin, gen yaylaqların,
Görənin əqlini başından alıb.

Payına torpağın gözəli düşüb,
Neməti torpaqdan dad alan vətən.
Bəxtinə insanın əzəli düşüb,
Bəşər tarixində ad alan vətən.

Məkkə, Mədinəmdir sənin torpağın,
Səcdəndə qalmağa and içmişəm mən.
Dinim, imanımdır uca bayrağım,
Uğrunda canlardan çox keçmişəm mən.

## Sona İntizar

# Sevdiyim!

Güləndə gözümün içi də gülür,
Yetər ki, sevdiyim yanımda olsun!
Olmasa, eşqimin çırağı sönür,
İstərəm daha da od-alovlansın.

Tutub əllərimdən, sarılsın mənə,
Saçımı oxşasın, ətrin qoxlasın.
İsti əlləriylə toxunsun mənə,
“Sevirəm”, “mənimsən” o pıçıldasın.

Gözəl sözləriylə vəsf etsin məni,
Bənzətsin günəşə, ulduza, aya.
Səmaya birlikdə bir əl uzadaq,-
Bir ulduz mən sayam, birin o saya.

Səringül Sadə

# İnanın Mənə

Dünya sirlə doludu,
Dünya haqqın yoludu,
Dünya Tanri quludu,
Dedim, inanın mənə!

Uydum şirin dilinə,
Düşdüm qəmin selinə,
Zəhəri bal yerinə,
Yedim, inanın mənə!

Baxmadım heç yaşına,
Torpağına, daşına,
Çox dolanıb başına,
Söydüm, inanın mənə!

Goru gördüm gözümlə,
İməklədim dizimlə,
Düşmənliyin bizimlə,
Duydum, inanın mənə!

Mən Sadəyəm, bağrıqan,
Bunu bılsın hər insan,
Fani, yalan dünyadan,
Doydum, inanın mənə!

Səidə Əliyeva

# Ürək

Körpə quş kimi əsib, çırpınarsan,
Aram-aram döyünərsən ay ürək.
Bulud kimi dolarsan, boşalarsan,
Həzin-həzin kövrələrsən, ay ürək!

Ağrılar yaxalar hər addımbaşı,
Nəbzin tutar həkim, çatılar qaşı.
Güllərin şəbnəmi axan göz yaşın
Bülbülün fəğanı ah-nalən ürək.

Köhnə saat tək işlər, dayanarsan,
Həyəcanla təlaşlanar, sancarsan.
Dəyişkən payız havası, şıltaqsan,
Nədən narahatsan söylə, ay ürək?

Zərif xislətinə de dəydi kimlər?
Ömürdən gün alar ötdükcə günlər.
Çöhrəndən yığışdı hara gülüşlər,
Könlün həyatdanmı küsdü, ay ürək?

Xəyalın kədərə, qüssəyə dalıb,
Xoşbəxtlik dizinin dibində qalıb.
Bəxtin mürgüləyib harada yatıb?
Pərvərdigardan istə güc ay ürək.

Unut dərdi-qəmi, nisgil-kədəri,
Unutma ovqata mərhəmət, mehri.
Gəl qırma həyata bağlanan telləri
Arzu, səadətlə yaşa, ay ürək.

Hələ öndə neçə arzu, kamımız,
Qönçələnən ağ çiçək iqbalımız.
Gecələr sübhədək vurub aramsız,
Ah-fəryad qoparma ürək, ay ürək.

Dağıt qucağından möhnəti, qəmi,
Bağrına bas xoşbəxt, firavan aləmi.
Gəzib təbiəti, dolaş çəməni,
Gözəllik önündə susma ay ürək.

Dünya etibarsız, çəkmə qəhrini
Təbiət möcüzə seyr et sehrini.
Bir çəmən, çiçəyin duyub ətrini,
Huşunu itirmə, çaşma, ay ürək.

Yüksəl arzuların şah zirvəsinə,
Günəş kimi şəfəq saç ömür-günə.
Qübarlanıb dönmə yağış, çiskinə
Qəhərdən göynəyib üzülmə, ürək.

Keşməkeşli yollarmı yorub səni?
Üstünə ələnib dünyanın qəmi.
Qurut gözündəki dumanı, çəni
Təbəssüm yaraşır üzünə ürək.

Çox baş vurma ötüb keçən illərə,
Döz haqlı-haqsız olub keçənlərə.
Fikir vermə, əbəs deyilənlərə,
Ümid, təsəlli ver özünə ürək.

Fikir səni çəkir çox uzaqlara
Köks ötürüb qərq olma sükutlara.
Çən çöküb məna dolu baxışlara,
Duman-sis yığılıb gözünə ürək.

Kimi ömür sürər, yaşar, qocalar,
Kimi cavan köçər, sönər çıraqlar.
Ömrü ölümdən qoparmağı bacar,
Nə olar tələsmə yaşa, ay ürək.

Gəl ucaldaq ömür adlı sarayı,
Kərpici nəvaziş, gülüşdən olsun.
Könül bağçasında quşlar oxusun,
Sevinc dolu ömür yaşa, ay ürək.

Xəyalların qonar yolun qaşına,
Xatirələr boylanar yaddaşına,
Ümidlər doğrular, çıxar qarşına
Doya-doya yüz il yaşa, ay ürək,
Bir mənalı ömür yaşa, ay ürək.